**Azərbaycanda ali dövlət qurumlarına kitabxana-informasiya xidməti göstərən iri kitabxanalar**

**Mayıl ƏHMƏDOV**
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin Prezident Kitabxanasının direktoru

Azərbaycan Respublikasında müxtəlif tipli kitabxanaların daxil olduğu geniş kitabxana-informasiya şəbəkəsi mövcuddur. Bu şəbəkəyə kütləvi, elmi-texniki, uşaq, gənclər, tədris və musiqi məktəblərinin kitabxanaları, eləcədə müxtəlif dövlət qurumlarının tabeliyində olan kitabxanalar daxildir. Ölkəmizdə ali dövlət qurumlarına kitabxana-biblioqrafiya və informasiya xidməti göstərən bəzi iri kitabxanalar haqqında məlumatları konfrans iştirakçılarının diqqətinə çatdırmaq istəyirəm.

**Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI.** 2003-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Bakı şəhərinin iki ən qədim kitabxanasının - Mərkəzi Şəhər kitabxanasının (keçmiş Lenin adına kitabxana) və Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Təsərrüfat şöbəsinin nəzdində olan kitabxananın (keçmiş Siyasi Maarif Evinin kitabxanası) bazasında yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2009-cu il tarixli Sərəncamı ilə Prezident Kitabxanasına Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin şöbəsi statusu verilmişdir. Əməkdaşlarının hamısı dövlət qulluqçusudur.

*Kitabxananın əsas vəzifəsi.* Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, İşlər İdarəsinin, mərkəzi və yerli icra orqanlarının əməkdaşlarına, eləcə də geniş oxucu kütləsinə kitabxana biblioqrafiya və informasiya xidməti göstərmək, onların kitablara, dövri nəşrlərə və kitabxana fondunu təşkil edən digər sənədlərə olan tələbatını ödəməkdir.

*Kitabxananın fəaliyyətinin əsas istiqamətləri.* Kitablar və digər sənəd növləri üzrə fondlar formalaşdıraraq informasiya ehtiyatları yaratmaq, onları mühafizə etmək, həmin fondları özündə əks etdirən mükəmməl ənənəvi və elektron kataloq-kartoteka və biblioqrafik vəsaitlər sistemini tətbiq etmək, onu daim inkişaf etdirməklə bu fondları oxucuların hərtərəfli istifadəsinə verməkdən ibarətdir.

Kitabxananın fondunda XVI-XIX əsrlərdə və XX əsrin əvvəllərində nəşr olunmuş müxtəlif dillərdə olan nadir ədəbiyyat nümunələri saxlanılır. Fondda iqtisadiyyata, siyasətə, dövlət quruculuğuna, hüquqa, fəlsəfəyə, statistikaya, tarixə, ədəbiyyatşünaslığa və dilçiliyə dair ədəbiyyat üstünlük təşkil edir.

2009-cu ildə "Kitab abidələri haqqında" əsasnaməyə uyğun olaraq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən respublikada olan nadir və unikal nüsxələrin dövlət reyestri tərtib edilmişdir. Bu reyestrə əsasən məlum olmuşdur ki, respublikamızda ən çox kitab abidəsi (1088 adda) Prezident Kitabxanasında saxlanılır. Respublikamızda ən qədim kitab abidəsi hesab olunan 1591-ci ildə italyan dilində nəşr olunan "Historia di Parma" kitabı da Prezident Kitabxanasının fondunda saxlanılır.

Kitabxananın dövri mətbuat fonduna respublikamızda və digər ölkələrdə çap edilən 300 adda jurnal, qəzet və digər dövri nəşrlər daxil olur. Hazırda Kitabxanada fondun elektron nəşrlərlə komplektləşdirilməsi sahəsinə xüsusi diqqət yetirilir.

*Kitabxana proseslərinin avtomatlaşdırılması sistemi.* Kitabxanada müasir informasiya texnologiyalarının tətbiqinə xüsusi önəm verilir. Kitabxanada lokal kompüter şəbəkəsi yaradılmış, İnternetə çıxış təmin edilmişdir. Portativ kompüterləri olan oxucular kitabxananın oxu zalından İnternetə simsiz əlaqə sistemi ilə də qoşula bilərlər. Kitabxanada İRBİS Kitabxana Avtomatlaşdırılma Sisteminin son versiyasının (İRBİS 64) tam komplekti tətbiq edilmişdir. Bu sistem fondun komplektləşməsindən tutmuş, kitab verilişinədək bütün kitabxana proseslərinin avtomatlaşdırılmasını təmin edir. Sistem həm də oxuculara kitabxanada hazırlanmış tammətnli verilənlər bazasından istifadə etməyə imkan verir. Bundan əlavə, hər bir İnternet istifadəçisi kitabxananın Web səhifəsi vasitəsi ilə onun elektron kataloqundan və digər elektron resurslarından istifadə edə bilər.

*Soraq-biblioqrafiya aparatı və biblioqrafik xidmət.* Kitabxanada Azərbaycan, rus və digər dillərdə olan ədəbiyyatı əks etdirən əlifba və sistemli kataloq tərtib edilmişdir. 2003-cü ildən etibarən kitabxananın aldığı bütün kitablar haqqında məlumat elektron kataloqa (EK) daxil edilir. 2004-cü ildən isə fonda daxil olan dövri nəşrlərdəki ən əhəmiyyətli materialların biblioqrafik təsvirləri də EK-nın tərkibindəki ayrı bir verilənlər

bazasına daxil edilir. Kitabxanada müxtəlif təyinatlı biblioqrafik vəsaitlər də tərtib və nəşr edilir. EK-dan və biblioqrafik vəsaitlərin elektron variantlarından həm də Kitabxananın Web səhifəsi ilə də istifadə etmək olar. Kitabxana öz istifadəçilərinə tam həcmdə soraq-biblioqrafiya və biblioqrafik informasiya xidməti göstərir. Xüsusi oxucu qruplarına elektron poçt (E-mail) vasitəsilə də biblioqrafik informasiya xidməti göstərilir. Kitabxanada ənənəvi kitabxana-biblioqrafiya xidmətləri ilə yanaşı, İnternetdən istifadə, müxtəlif təqdimatlar və mətbuat konfranslarının keçirilməsi, skaner, surətçıxarma, laminasiya və s. əlavə xidmətlərdən də istifadə etmək olar.

*Elektron biblioqrafik nəşrlər.* 2003-cü ildən etibarən kitabxananın fonduna daxil olan kitablar və dövri mətbuat nəşrləri əsasında aşağıdakı cari elektron biblioqrafik göstəricilər tərtib və nəşr edilir:

- ✓ Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası
- ✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasət fəaliyyətinin xronikası
- ✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı qanun, fərman və sərəncamların biblioqrafiyası
- ✓ Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları
- ✓ Azərbaycan Respublikasının qanunları
- ✓ Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları
- ✓ İlham Əliyev. Azərbaycanın neft diplomatiyası
- ✓ Azərbaycanı dünyaya tanıdan lider
- ✓ Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə çap olunmuş kitablar
- ✓ Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı
- ✓ Mir Cəlal Paşayev - 100
- ✓ Yeni kitablar

*Elektron biblioqrafik bülletenlər*

- ✓ İqtidar. Müxalifət. Xalq
- ✓ Tarix. Mədəniyyət. Elm
- ✓ Azərbaycan iqtisadiyyatı
- ✓ Azərbaycan Respublikasında seçkilər
- ✓ Xarici siyasət və beynəlxalq münasibətlər
- ✓ Neft və Qaz
- ✓ İnsan haqları
- ✓ Ekologiya

*Tammətnli elektron nəşrlər.* Kitabxananın profilinə uyğun aktual mövzular üzrə aşağıdakı tammətnli elektron nəşrlər yaradılmışdır:

- ✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri, bəyanatları
- ✓ Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin nitqləri, məruzələri, çıxışları, müsahibələri, bəyanatları (1993- 2003)
- ✓ İlham Əliyev və Azərbaycanın neft diplomatiyası
- ✓ Əsrin müqaviləsi
- ✓ Azərbaycanda Olimpiya hərəkatı
- ✓ Xoşməramlı səfir
- ✓ Azərbaycan diasporu
- ✓ Bələdiyyə hakimiyyəti
- ✓ Dağlıq Qarabağ münaqişəsi
- ✓ Ekologiya (sənədlər toplusu)
- ✓ Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı
- ✓ Dövlət qulluğu (sənədlər toplusu)
- ✓ Azərbaycanlıların soyqırımı və deportasiyası

***LAYİHƏLƏR***

- ✓ Odlar Yurdu Azərbaycan (Azərbaycan, rus, ingilis dillərində)
- ✓ Heydər Əliyev. Elektron Sənədlər Toplusu
- ✓ XX əsrin faciəsi - Xocalı soyqırımı (Azərbaycan, rus, dillərində)
- ✓ Naxçıvan Muxtar Respublikası - 85
- ✓ Azərbaycan. Dövlət rəmzləri və atributları
- ✓ Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasət fəaliyyəti
- ✓ Təcavüz. 20 Yanvar 1990 (Azərbaycan, rus, ingilis dillərində)
- ✓ Azərbaycan ekologiyası
- ✓ Azərbaycan Respublikası – 20

Azərbaycanın tarixinə, iqtisadiyyatına, xarici siyasətinə, mədəniyyətinə və incəsənətinə dair mövzular üzrə fondda olan kitabların elektron versiyası yaradılaraq kitabxananın Web səhifəsinə yerləşdirilir.

2008-ci il yanvar ayının 24-25-də Prezident Kitabxanasının yaradılmasının 5 illiyinə həsr olunmuş «Dövlət idarəetmə orqanlarının sənəd-informasiya təminatı: müasir vəziyyət və inkişaf perspektivləri» mövzusunda elmi-praktik konfrans keçirildi. Konfransda MDB ölkələrinin prezident və parlament kitabxanalarının rəhbərləri, respublikanın aparıcı kitabxanalarının nümayəndələri, alimlər, ziyalılar, mütəxəssislər iştirak edirdilər. Konfransda ali dövlət idarəetmə orqanlarının operativ kitabxana-biblioqrafiya və informasiya təminatı, cəmiyyətin informasiyalaşdırılması, informasiya texnologiyalarının kitabxana işinə tətbiq olunması sahəsində Prezident Kitabxanasının iş təcrübəsi, kitabxana proseslərinin kompleks avtomatlaşdırılması sistemlərinin yaradılması məsələləri geniş müzakirə edilmiş, müvafiq qərarlar qəbul olunmuşdur.

2009-cu ildə Prezident Kitabxanasının əməkdaşları tərəfindən ilk dəfə olaraq 20 yanvar faciəsi və Xocalı soyqırımına həsr olunmuş Azərbaycan, rus və ingilis dillərində iki zəngin elektron resurs yaradılmış və istifadəçilərə təqdim edilmişdir.

Fəaliyyət göstərdiyi qısa müddətdə Prezident Kitabxanasının geniş beynəlxalq əlaqələri yaranıbdır. Kitabxana İFLA və EBNİT-in üzvüdür. Belarus Prezident Kitabxanası, Rusiya Federasiyanın Prezident və Parlament Kitabxanaları ilə sıx əlaqələr qurulmuşdur. Kitabxananın əməkdaşları kitabxana işinə dair mötəbər beynəlxalq konfranslarda aktiv iştirak edirlər.

| № | **Məlumatlar və göstəricilər İllə** | **İllər üzrə** | |
|---|---|---|---|
| | | 2009 | 2010 |
| ***1*** | ***2*** | ***3*** | ***4*** |
| 1. | Kitabxana Fondun komplektləşdirilməsi: | | |
| | - cəmi neçə adda kitab və kitabça daxil olmuşdur (o cümlədən hədiyyələr) | 4701 | 6027 |
| | - kitabların nüsxələrinin sayı | 4093 | 4300 |
| | - avtoreferatlar | 554 | 687 |
| | - elektron informasiya daşıyıcıları və audio və video vasitələr 19 | 41 | 36 |
| | - qəzetlər | 118 | 145 |
| | - jurnallar | 154 | 197 |
| | - digər materiallar (not, xəritə, buklet, prospekt və s.) 6 | 13 | 4 |
| 2. | Kitabxanaya hədiyyə olunan kitabların ümumi sayı | 707 | 1081 |
| 3. | Elektron kataloq haqqında məlumat | 424951 | |
| 4. | Kitabxana resurslarının ümumi həcmi (Verilənlər bazaları (VB)) | 14 | |
| 5. | Elektron kataloqdakı yazıların sayı | 325575 | |

**Azərbaycan Respublikası Milli Məclisinin Kitabxanası.** (Parlament Kitabxanası) Azərbaycan parlamentarizm ənənələri 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyəti zamanında başlanır, Sovet Hakimiyyəti illərində davam edir. XX əsrin sonu və XXI əsrin astanasında Azərbaycanda baş verən siyasi, iqtisadi və sosial proseslər yeni bir dövrün başlanğıcını qoydu. 1993-cü ildə dünya şöhrətli siyasi xadim Heydər Əliyevin Azərbaycan hakimiyyətinə gəlişi ilə Azərbaycanın yeni dövlət strategiyası işlənib hazırlandı, Azərbaycan dünya parlamentarizm ənənələri ilə tədricən yaxından tanış olur və inteqrasiya edirdi.

Milli Məclisin kitabxanası 1997-ci ilin mart ayından fəaliyyət göstərməyə başlamışdır. Kitabxananın yaradılmasında Türkiyə Böyük Millət Məclisinin əməyi böyük olmuşdu. Bu kitabxana TBMM-nin Azərbaycan Respublikası Milli Məclisinə bir hədiyyəsi kimi də qiymətləndirilə bilər. Kitabxananın açılışında TBMM-nin sədri Mustafa Qələmli iştirak etmişdir. Bütün texniki vasitələr və avadanlıqlar, kitab rəfləri, xüsusi oxucu masaları və kompüterləri TBMM hədiyyə etmişdir.

Kitabxananın kitab fondu təqribən 10000 nüsxə kitab və kitabçadan ibarətdir. Bunlardan: 4600 nüsxə Azərbaycan dilində, 3400 nüsxə rus dilində, 1000 nüsxə isə türk dilində olan çap məhsullarıdır. Kitab fondunun komplektləşdirilməsi məcburi nüsxələr və yeni ədəbiyyatın alınması yolu ilə aparılır. Kitabxana cari ildə 33 adda dövrü mətbuata, 43 adda jurnala abunə olmuşdur ki, bütün bu çap məhsulları oxucuların istifadəsinə verilmişdir. Kitabxana fondunun 80%-ni hüquqi ədəbiyyat, qanunvericilik aktları, sorğu ədəbiyyatı təşkil edir. Bundan başqa kitabxananın fondunda bədii ədəbiyyat da öz əksini tapmışdır. Kitab fondu elm sahələri üzrə düzülmüşdür.

Parlament kitabxanası Milli Məclisin rəhbər heyətinə, Millət vəkillərinə, Milli Məclis aparatının əməkdaşlarına xidmət göstərir. Kitabxanaya daxil olan oxucu sorğuları araşdırılır və operativ şəkildə öz həllini tapır. Kitabxana il ərzində 1000-1200 oxucu sorğusu ödəyir. Əlamətdar hadisələrlə əlaqədar kitabxanada tez-tez kitab sərgiləri, stendlər təşkil olunur.

Kitabxana da sürətli internet vasitəsi ilə bütün şəbəkələrə qoşulmaq imkanları yaradılmışdı. Bu məqsədlə oxu zalında 8 ədəd müasir kompyuter oxucuların istifadəsinə verilmişdir. Azərbaycan Milli Məclis Kitabxanasının elektron məlumat axtarış sistemi üçün xüsusi proqram tərtib və tətbiq olunmuşdur. Elektron resursların təmərgüzləşdirilməsi və istifadəyə verilməsi ilə əlaqədar hal-hazırda geniş çapda işlər görülməkdədir.

Parlament kitabxanası öz əlaqələrini daima genişləndirməkdədir. Belə ki, MDB respublikaları parlament kitabxana müdirlərinin 2000-ci il may ayında Sankt-Peterburq şəhərində keçirilən konfransında MDB Parlamentlərarası Assambleyasının rəhbərliyinə "MDB dövlətləri parlament kitabxanaları arasında informasiya və kitab mübadiləsinin təmini" üçün müraciət imzalamışlar. Bu məqsədlədə MDB dövlətlərinin parlament kitabxanaları arasında rəsmi sənədlərin, kitab və digər çap məhsullarının mübadiləsi üçün koordinasiya mərkəzi yaradılmışdır. Kitabxana RF-nın Duma kitabxanası, Ukrayna, Belorus, Moldova, Qazaxıstan, Tacikistan respublikalarının parlament kitabxanaları ilə rəsmi sənədlərin və çap əsərlərinin mübadiləsini həyata keçirir.

Kitabxanada türkdilli respublikaların parlamentlərarası əlaqələrinin prioritet təşkil etməsi məclis kitabxanalarının da əlaqələrində öz əksini tapmaqdadır. Qarşılıqlı səfərlər, yazışmaların, sənəd mübadiləsinin genişliyi bunun bariz nümunəsidir. Əlaqələrin inkişaf dinamikası və keyfiyyət dərinliyi bu münasibətlərin yaxın illərdə daha da genişlənəcəyinə əsas verir.

Türkdilli Respublikaların Parlament Assambleyasının cari ilin aprel ayında Astanada keçirilmiş növbəti yığıncağında Parlamentlər arasında yeni bir protokolun imzalanması hal-hazırda həyata keçirilən əməkdaşlıq və rəsmi sənədlərin mübadiləsi sahəsində Parlament Kitabxanalarına hüquqi əməkdaşlıq zəminində daha geniş imkanlar verəcəkdir.

**Respublika Elmi Pedaqoji Kitabxanası.** Respublika Elmi Pedaqoji Kitabxanası (REPK) 1982-ci ildən fəaliyyət göstərir. REPK fəaliyyət göstərdiyi vaxtdan Azərbaycan Respublikası Təhsil Nazirliyinin ümumtəhsil peşə məktəbləri, orta ixtisas təhsil müəssisələri kitabxanaları üçün metodiki mərkəz funksiyasını yerinə yetirir.

Elmi-texniki, bədii, ictimai-siyasi, iqtisadi, sosial-mənəvi ədəbiyyat xəzinəsi geniş oxucuların istifadəsinə verilmiş kitabxana fondlarının formalaşmasında tarixi milli qaynaqlıq, yüksək ideallıq, bəşərilik və humanistlik ön plana çəkilmişdir.

REPK-a elmi-sahəvi kitabxanadır. Respublika təhsil işçilərinə, təhsil sistemində fəaliyyət göstərən müəssisələrə, nazirliyin kitabxana şəbəkəsinə məlumat-biblioqrafiya xidmətini həyata keçirən elmi metodik və əlaqələndirmə mərkəzidir. Respublikada elmi pedaqoji ədəbiyyatın əsas kitabsaxlayıcısıdır. Kitabxana kataloq, kartoteka, biblioqrafik vəsaitlər, elektron informasiya ehtiyatları yaratmış və oxucuların istifadəsinə vermişdir.

Kitabxananın profilinə uyğun olaraq fondun yeni ədəbiyyatla tam komplektləşdirilməsi üçün məqsədyönlü iş aparılır. Komplektləşdirmə şöbəsi çap nəşrlərinin ümumi və fərdi uçotunu təmin edir. Ədəbiyyatı elmi və texniki cəhətdən işləyir. Kitab fondunun təkmilləşdirilməsi üzrə iş aparır, baş kataloqu yaradır. Dünya kitabxanalarına çıxmaq məqsədilə elektron kataloqlarının yaradılmasının vacibliyini nəzərə alaraq kitabxana fondu dünya kitabxanalarında tətbiq edilən Universal Onluq Təsnifatı (UOT) əsasında yenidən təsnifləşdirilmişdir.

Oxucu qrupunun maraq sorğularının müxtəlif formada öyrənilməsində və ödənilməsində kitabxana işi üçün yararlı olan biblioqrafik nəşrlər böyük əhəmiyyət kəsb edir. REPK-a Təhsil Nazirliyi aparatının əməkdaşlarına, təhsil işçilərinə, tələbə və şagirdlərə, kitabxananın digər oxucularına informasiya-biblioqrafiya xidmətini təşkil edir, məlumatın çatdırılmasında müxtəlif formalardan istifadə edir: Mütəxəssislərin sorğularını operativ ödəyir, məlumat günləri, mütəxəssis günləri, biblioqrafik icmal, tematik sərgilər keçirir, cari və retrospektiv ədəbiyyatın göstəricilərini tərtib edir, dövrü nəşrlərin kartotekasını yaradır, təhsil, pedaqogika, pedaqoji elmlərə dair göstəricilər, görkəmli pedaqoqların şəxsi göstəricilərini tərtib edir.

REPK fəaliyyətinin 25 illiyi münasibətilə 595 sözdən ibarət 3 dildə (Azərbaycan-rus-ingilis) «Kitabxana-biblioqrafiya terminləri lüğəti» nəşr etdirmişdir.

Fondda Azərbaycanda xalq təhsili, pedaqogika, psixologiya və müxtəlif elm sahələrini əhatə edən ədəbiyyat, avtoreferatlar, qəzet, jurnal və digər çap məhsulları və həmçinin xarici ölkələrdə nəşr edilən kitablar qorunub saxlanılır.

Kitabxanada 30 oxucu yeri olan oxu zalı xidmət göstərir. Zalda mikrodaşıyıcılarda olan materiallardan istifadə etmək üçün xüsusi aparatlar oxucuların istifadəsinə verilmişdir. Oxu zalında daimi və dəyişən sərgilər təşkil edilir, mütəmadi olaraq təkmilləşdirilir.

Kitabxanada «Yeni informasiya texnologiyaları şöbəsi» yaradılmışdır. Kitabxana ***Internet*** şəbəkəsinə qoşulmuş, özünün WEB səhifəsini açmışdır. Kitabxanada lokal kompüter şəbəkəsi yaradılmış, İRBİS 64 «Kitabxanaların Avtomatlaşdırılmış Sistemi»nin nümayiş versiyasında elektron kataloqunun əsası qoyulmuşdur. Şöbədə elektron informasiya daşıyıcıları (CD, DVD) toplanmışdır.

REPK təhsilin, təlim-tərbiyə işinin inkişaf etdirilməsinə yaxından köməklik göstərilməsi üçün ümumtəhsil, peşə məktəbləri və orta ixtisas müəssisələri kitabxanalarının fəaliyyəti haqqında 2002-ci ildən **Məlumat (Verilənlər) Bazası** yaradılmasına başlamış və baza müntəzəm olaraq təkmilləşdirilir, məktəb kitabxanalarının dinamikası diqqət mərkəzində olur. Yaradılmış **Məlumat (Verilənlər) Bazası** əsasında «Təhsil Nazirliyi sistemindəki ümumtəhsil məktəb kitabxanalarının fəaliyyəti» (2003) adlı məlumat kitabını tərtib etmişdir.

**Respublika Elmi-Texniki Kitabxanası.** 1930-cu ildə "Neftçi" klubu kitabxanasının bazası əsasında ölkənin ilk elmi-texniki kitabxanası - Azneftin Mərkəzi Texniki kitabxanası yaradılmışdır. 1957-ci ildə bu kitabxana Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Elm və Texnika Komitəsi nəzdində Respublika Elmi-Texniki Kitabxanasına çevrilmişdir.

Bu gün Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi Respublika Elmi-Texniki Kitabxanası (RETK) nazirlik, şirkət, idarə və müəssisələrə, elmi-tədqiqat və layihə institutlarına, eləcə də elm və texnika sahəsində tədqiqat aparan ayrı-ayrı şəxslərə, ali məktəb tələbələrinə məlumat-biblioqrafiya və kitabxana xidməti göstərən respublika mərkəzi hesab edilir.

Kitabxananın ümumi fondu - 14732194 çap nüsxəsi ədəbiyyat təşkil edir.

Kitabxananın nəzdində Respublika Patent Fondu və Respublika Normativ Texniki Sənədlər Fondu da fəaliyyət göstərir.

Respublika Patent fondu 1967-ci ildə yaradılmışdır. Dünyanın 35 ölkəsinin 27 dilində Beynəlxalq və Avropa patent idarələrinin sənədləri, həmçinin müəllif şəhadətnamələri ilə komplektləşdirilmişdir.

Respublika Standart və Normativ-texniki sənədlər fondu 1969-cu ildən fəaliyyət göstərir. Fond yerli və xarici ölkə normativ-texniki sənədlər və standartlardan komplektləşdirilmişdir.

Respublika Elmi-Texniki Kitabxanasının oxucularının sayı 6486 nəfər təşkil edir. Həmin oxuculara il ərzində cəmi 114582 nüsxə ədəbiyyat təqdim edilmişdir. Bundan başqa Kitabxananın Gəncə şəhərində də filialı fəaliyyət göstərir.

RETK respublikanın ən böyük elmi-sahəvi kitabxanalarından biri olmaqla yanaşı ənənəvi kitab təbliği və kitabxana-biblioqrafiya xidmətindən əlavə müəllif şəhadətnamələri və patent ədəbiyyatı, normativ-texniki sənədlər, xarici ölkələrin jurnalları və digər ədəbiyyatı özündə əks etdirən elmi-tədqiqat işi və metodik

fəaliyyətlə məşğul olan böyük müəssisədir. RETK-nın fondlarında ictimai-siyasi ədəbiyyat, elmi-texniki, sorğu ədəbiyyatı, informasiya xarakterli ədəbiyyat, dərslik və metodik materiallar, dövri və ardı davam edən nəşrlər, təcrübə-konstruktor işləri, tərcümələr, sənaye kataloqları, normativ texniki sənədlər, ixtiralar, ixtiraçılıq-patent hüquqları haqqında ədəbiyyat, patentlər, mətbuatda dərc olunmayan ədəbiyyat qorunub saxlanılır.

Hər il kitabxananın fondlarına yüzlərlə ədəbiyyat daxil olur. Yeni kitablardan əlavə oxucular da hədiyyə olaraq kitabxanaya ədəbiyyat təqdim edirlər.

Kitabxananın fondlarından alimlər və mütəxəssislər geniş istifadə edirlər. Respublikanın müxtəlif bölgələrindən elmi işçilər, alim və mütəxəssislər kitabxanaya müraciət edirlər.

RETK eyni zamanda Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsi tələbələrinin tədris istehsalat bazası hesab olunur. Kitabxanaçılıq-informasiya fakültəsinin tələbələri RETK-nın müxtəlif şöbələrində istehsalat təcrübəsi keçərək kitabxanaçılıq elminin incəliklərinə yiyələnirlər. Tələbə və aspirantlara elmi işlərində metodik köməklik göstərilir.

**Azərbaycan Dövlət Respublika Elmi Tibb Kitabxanası.** Respublikamızın elmin, təhsilin, mədəniyyətin inkişafına təsir göstərən qabaqcıl, iri kitabxanalarından biri də Azərbaycan Dövlət Respublika Elmi-Tibb Kitabxanasıdır (AzDRETK). Tipoloji baxımdan xüsusi elmi kitabxana olan AzDRETK 1940-cı ildə yaradılmışdır. Kitabxana fondu ilkin olaraq ölkəmizin görkəmli həkim və alimlərinin hədiyyə verdikləri nəşrlər əsasında formalaşdırılmışdır.

O zamandan indiyə qədər kitabxananın fondu, ərazisi, işçi ştatı çox artmışdır. Kitabxananın 2007-ci ildə hesabatında olan məlumata əsasən kitabxana fondu 472.494 nüsxə fonddan ibarətdir.

2007-ci ildə 3541 oxucu gəlişi və 21405 kitab verilişi qeydə alınmışdır. Kitabxanaların üzərinə düşən 5 sosial funksiyaların (təhsil, mədəniyyət, tərbiyə, elm, informasiya), layiqincə yerinə yetirilməsi üçün kitabxanada xeyli iş görülmüşdür.

Kitabxanada ənənəvi kitabxana-informasiya xidmətinin inkişafı üçün yeni müasir meyllərin tətbiqi istiqamətində bir sıra tədbirlər görülür. Bununla yanaşı bir sıra kütləvi tədbirlər, müxtəlif əlamətdar günlərə həsr olunmuş nəşr sərgiləri keçirilir. Məsələn: 2006-cı ildə vərəmə aid təşkil olunmuş mütəxəssis günü çox maraqlı olmuşdur, 2009-cu ildə endokrinoloqlar günü, 2010-cu ildə ekologiya günü, 2011-ci ildə sağlamlıq günü.

Tez-tez oxucuların kitabxana-informasiya resurslarından istifadəsi ilə əlaqədar maarifləndirici tədbirlər keçirilir. Bu tədbirlərdə oxucularla soraq-informasiya aparatlarından istifadə etmək (kataloq, kartoteka sistemi), axtarışı düzgün təşkil etmək barədə söhbətlər aparılır, tibbə dair müxtəlif mövzular üzrə nəşrlər, eləcə də dövrü nəşrlər haqqında məlumat verilir. Bu tədbirlərdə çox zaman əməkdaşlar tərəfindən müxtəlif mövzular üzrə seçilmiş nəşrlərlə bağlı şifahi icmallar da aparılır. Onu da qeyd etmək lazımdır ki, bu tədbirlərdə çox zaman AzDRETK-nın elmi-metodiki köməklik göstərdiyi tibb kitabxanaları şəbəkəsinin əməkdaşları da iştirak edirlər.

Oxucular arasında müxtəlif istiqamətlərdə hazırlanmış sərgilər də böyük maraq doğurur. Sərgilər yeni daxil olan ədəbiyyat, elmi-praktiki fəaliyyətdə olan ayrı-ayrı görkəmli həkimlərə dair nəşrlərdən və müxtəlif əlamətdar hadisələr, aktual məsələlərə həsr edilmiş tematik nəşrlərdən ibarət olur. Kitabxananda təşkil olunan belə sərgilər içərisində «Siqaret əleyhinə beynəlxalq mübarizə günü», «Tibb işçiləri günü», «M. Cavadzadə-80», «A. Namazova», «AİDS ilə mübarizə günü» və s. göstərmək olar.

Sərgilərin daha geniş yayılmış formalarından biri hərəkətli sərgilərdir. Hərəkətli sərgilərin mahiyyəti müxtəlif orqanlarda məqsədəuyğun mövzulara həsr olunmuş nəşrlərin təqdimatından ibarətdir. Bu növ sərgilər əlavə vəsait tələb etdiyi üçün onları tez-tez təşkil etmək mümkün olmur. Lakin buna baxmayaraq kitabxananın əməkdaşları tərəfindən Ağ ciyər xəstəlikləri ETİ, M. Topçubaşov adına Milli Cərrahiyyə Mərkəzi, Mərkəzi Hərbi Klinik Hospitalda belə sərgilər uğurla təşkil olunmuş və oxucu kontingentinin genişlənməsinə, həkimlərin kitabxanaya marağının artmasına səbəb olmuşdur.

Kitabxana-informasiya xidmətinin daha da təkmilləşdirilməsi üçün 2006-cı ildən tibbə dair müxtəlif mövzulu CD-lərdən ibarət fondun da təşkilinə başlanmışdır. Hazırda bu fondda 54 disk vardır. Gələcəkdə bu fondun genişləndirilməsi və zənginləşdirilməsi nəzərdə tutulur.

Oxuculara daha dolğun informasiya xidmətinin həyata keçirilməsi üçün internet xidmətlərindən istifadə olunur. Peşəkar əməkdaşlar oxuculara elmi-tibbi saytlardan istifadə edilməsi, müxtəlif mövzular üzrə sorğuların formalaşdırılması və bu sorğu üzrə axtarışın aparılması istiqamətində metodiki köməklik göstərirlər.

Daha bir xidmət forması kitabxanalararası abonementdir(KAA). Bu xidmət vasitəsilə ölkəmizin digər iri kitabxanaları ilə əlaqələr yaradılır və oxucuların sorğularının daha dolğun ödənilməsi üçün həmin kitabxanaların fondlarından istifadə edilir. Bu əməkdaşlıq qarşılıqlı olduğu üçün həmin kitabxanaların kitabxana-informasiya

xidmətində bizim kitabxana da yardımçı olur. Həmin kitabxanalarla koordinasiyanın həyata keçirilməsi işində KAA şöbəsi ilə yanaşı elmi-metodiki, xidmət, biblioqrafiya, xarici ədəbiyyat şöbələri də məşğul olurlar.

Elmi-metodiki şöbənin fəaliyyəti əsasən ölkəmizdə tibb kitabxanaları şəbəkəsinə metodiki köməklik göstərməkdən ibarətdir. Lakin buna baxmayaraq bu şöbə də kitabxana-informasiya işinin təşkilində bilavasitə iştirak edir. Belə ki, həmin şöbə respublikamızda, əsasən də regionlarda tibb kitabxanalarının fəaliyyətinə yardımçı olur, onların fondlarını mübadilə fondu hesabına genişləndirməyə səy göstərir.

**Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Kitabxanası.** Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin nəzdində fəaliyyət göstərən kitabxana 2002-ci il oktyabrında təsis edilmişdir. İlk əvvəl kitabxana ayrı-ayrı şöbələrdən oxunduqdan sonra pay verilmiş ədəbiyyat və jurnalların daxil olması ilə fəaliyyət göstərirdi. Lakin işçi strukturu təyin olduqdan sonra yaradılmış kataloq sistemi kitabxananın nizamlanmasına gətirib çıxardı.

Lakin Azərbaycan kitabxanalarında yeni informasiya texnologiyalarının tətbiqinə dövlət səviyyəsində diqqət yetirilməsi, müasir informasiya texnologiyalarının dinamik inkişaf etdiyi informasiya cəmiyyəti dövründə elmi-mədəni sərvətlərdən hərtərəfli istifadə imkanlarının genişləndirilməsi baxımından qarşıya qoyulan ən ümdə vəzifələrdən biri də ölkə kitabxanalarının elektron kataloqunun müasir standartlar səviyyəsinə çatdırılması, kitabxanaların dünya informasiya məkanına daxil olmasının təmin edilməsidir.

Bu tələblərə uyğun olaraq RİTN-nin həyata keçirdiyi layihələrdən biri də nazirlik nəzdində elektron kitabxananın yaradılması oldu. "İRBİS" sisteminin tətbiqi ilə RİTN kitabxanasının avtomatlaşdırılması və İKT üzrə sahə elektron kitabxanasının yaradılması elmə, biliyə və ən əsası kitabxana sahəsinə olan xüsusi diqqətin nəticəsidir.

"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2009-2013 illərdə inkişafı üzrə Dövlət Proqramın"a əsasən Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi nəinki öz nəzdində yaradılan kitabxananın fəaliyyətini təkmilləşdirmişdir, həmçinin, bir sıra Azərbaycan kitabxanalarının müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsi, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə etməklə kitabxanaların dünya informasiya məkanına daxil olunması, elektron məlumat banklarının yaradılması, "İRBİS" sisteminin alınıb bir sıra kitabxanalara təqdim etməsi də nazirliyin bu sahədə xüsusi aktivliyini göstərir.

Bundan əlavə, 2007-ci ildə RİTN kitabxanasının səyi nəticəsində AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda "İrbis" proqramının öyrədilməsi ilə bağlı kurslar da təşkil olunmuşdur ki, bu kursda qeyd olunan proqramı yeni almış bir sıra tədris müəssisələrinin kitabxanaçıları təmənnasız olaraq öyrədilmişdir.

2007-ci ilin sentyabrında alınan "İRBİS" proqramı vasitəsilə qısa bir vaxtda RİTN kitabxanasında olan kitabların elektron kataloqu yaradıldı. Bu sistem fondun komplektləşməsindən tutmuş, kitab verilişinədək bütün kitabxana proseslərinin avtomatlaşdırılmasını təmin etdi. Kitabxanada həmçinin, tammətnli verilənlər bazasına abunə təşkil olundu. Bundan əlavə, Web səhifəsi vasitəsi ilə oxucunun Elektron kataloq və digər elektron resurslardan istifadəsi mümkündür.

Hal-hazırda kitab.rabita.az saytı ilə fəaliyyət göstərən RİTN kitabxanası 38 adda dövri nəşrlərə abunə olmuşdur. Bunlar 32 adda jurnal, 6 adda qəzetdən ibarətdir.

Qeyd olunan jurnallardan 22-i rabitə və informasiya texnologiyaları sahəsinə aiddir. Jurnalların bir çoxu Rusiya Federasiyasının nəşridir.

Kitabxanaya alınan kitablar isə sırf nazirliyin öz sferasını əhatə edən ədəbiyyatlardır. Lakin, balansda bir sıra təşkilatlar, o cümlədən, Rusiya səfirliyi tərəfindən pay verilən kitablar da vardır.

Kitabxananın abunəçiləri RİTN-nin öz işçiləri və bu sahəyə aid olan İnstitut və Texnikumların tələbələridir.

**Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası.** Bəşər mədəniyyətinin çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artmasında, aqrar siyasətin və kənd təsərrüfatı elminin təbliğində, elm və texnikanın inkişafında Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası əvəzsiz rol oynayır.

Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası 1921-ci ildə Xalq Torpaq Komissarlığı (XTK) tərəfindən yaradılmış və l923-cü il aprel ayının 12-də XTK-nın 47/213 saylı əmri ilə Mərkəzi Kənd Təsərrüfatı Kitabxanası kimi fəaliyyətə başlamışdır. 1967-ci ildən isə Azərbaycan SSR Nazirlər Sovetinin Respublika Kənd Təsərrüfatı Nazirliyi nəzdində Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası kimi öz fəaliyyətini davam etdirir.

1982-ci ildən Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası respublikada kənd təsərrüfatı ədəbiyyatı üzrə depozitar mühafizə mərkəzidir.

Hazırda Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası əsasnaməyə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını təbliğ edən, respublikanın nazirlik, şirkət, idarə və müəssisələri, elmi-tədqiqat və layihə institutlarının, eləcə də elm və texnika, kənd təsərrüfatı sahəsində tədqiqat aparan ayrı-ayrı mütəxəssislərə, tələbələrə, aspirantlara, magistrlərə məlumat-biblioqrafiya və kitabxana xidməti göstərən respublika miqyaslı elmi təyinatlı kitabxanadır.

Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının ümumi fondunun həcmi 1003362 nüsxə, kitab və digər informasiya daşıyıcılarının verilişi 658258 nüsxə, oxucuların sayı 48623 nəfərdir. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasında nadir nüsxələr və xarici ədəbiyyat fondları mövcuddur. Nadir nüsxələr fondunda 3000 nüsxəyə yaxın ədəbiyyat toplanıb.

REKTK Azərbaycan Respublikası ərazisində yerləşən 51 şəbəkə və 39 filial kitabxanalarına mərkəzləşdirilmiş formada metodiki köməklik göstərir. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası kitabxanalararası mübadilə yolu ilə MDB-nin 47 kənd təsərrüfatı kitabxanaları ilə kitab mübadiləsi aparır, eləcədə Polşa, Koreya, Fransa, Almaniya, Türkiyə və b. ölkələrin kitabxanaları ilə sıx əlaqə yaradır.

Hal-hazırda Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasında 5 şöbə, 3 bölmə fəaliyyət göstərir.

Hazırda kitabxanada 34 işçi fəaliyyət göstərir.

**Azərbaycan Diplomatik Akademiyasının Kitabxanası.** ADA kitabxanası 2007-ci ildə təsis edilmişdir. Hal-hazırda kitabxananın çap fondunun həcmi 10.000 nüsxədir. Kitabxana həmçinin "EBL" (Electronic Book Library) "JSTOR", "EBSCO", "OECD", "e-library", "Cambridge Journals Online", "Oxford English Dictionary", "İnternational Monetary Fund" kimi tammətnli elmi verilənlər bazalarına abunədir. ADA da tədris və digər prosedurlar ingilis dilində aparıldığına görə fondun əsas hissəsi ingilisdilli resurslardan ibarətdir. ADA kitabxanası İngiltərənin Oxford şəhərində yerləşən "Blackwell" şirkəti ilə əməkdaşlıq edir. Bu şirkətdən resurslar tam hazır formada gəlir (biblioqrafik təsvir-MARC yazı, şifrə, barcode və möhür) və fonda yerləşdirilir. Çap və elektron resurslar Konqres Kitabxanasının Təsnifat sistemi ilə təsnifləşdirilir. Kitabxana-informasiya proseslərinin avtomatlaşdırılması üçün 2010-cu ildən İnnovative İnterfaces İnc. şirkətinin istehsalı olan "Millennium" Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi tətbiq edilir, onuda qeyd etmək lazımdır ki, region üzrə ilk olaraq bu sistem Azərbaycanda tətbiq edilmişdir. 2010-cu il fevral ayında kitabxana heyəti treninq keçmək üçün Böyük Britaniyanın Oxford şəhərinə və ABŞ, Kalifornia ştatının San Fransisko şəhərlərinə səfər etmişdirlər.

ADA kitabxanasında hal-hazırda beş nəfər əməkdaş çalışır. Əsas heyət ixtisasca kitabxanaçıdırlar. Kitabxana ADA-nın işçi və tələbə heyəti ilə birlikdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin əməkdaşlarına da xidmət edir. İstisna hallarda digər müəssisələrdən gələn şəxslər də kitabxananın resurslarından faydalana bilər.

ADA kitabxanasının qarşısında duran ən mühüm işlərdən biri 2012-ci ildə yeni 4 mərtəbəli kitabxana binasının istifadəyə verilməsidir. Köçmə prosesindən sonra fondun həcminin öncə 40.000 nüsxə, sonrakı dövrlərdə 120.000 nüsxəyə çatdırılması planlaşdırılır.

Yuxarıda qeyd olunanlarla yanaşı bildirmək istəyirəm ki, 2002-ci ildə yaradılmış AR Konstitusiya Məhkəməsinin kitabxanası zəngin hüquq ədəbiyyatı kitabxanalarından biridir. AR Baş Prokurorluğunun Tədris Mərkəzinin kitabxanası, AR Ali Məhkəməsinin, AR Apelyasiya Məhkəməsinin kitabxanasında da hüquq ədəbiyyatı üstünlük təşkil edir. 2003-cü ildə BMT-nin layihəsi əsasında AR İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Aparatının kitabxanası yaradılmışdır. Kitabxananın fondu beynəlxalq hüquq, xüsusilə insan hüquqları haqqında ədəbiyyatla komplektləşdirilir, Ombudsmanın təşəbbüsü ilə xarici dillərdə insan haqlarına dair ədəbiyyatın tərcüməsi və nəşr edilməsi təşkil olunur, digər kitabxanalarla əməkdaşlığa xüsusi önəm verilir.

Həmçinin qeyd etmək lazımdırkı, Azərbaycan Respublikasında əksər nazirlik və dövlət komitələrinin, agentliklərin, dövlət şirkəti və konsernlərinin də nəzdində kitabxanalar fəaliyyət göstərir.

Bu gün ölkəmizdə müasir tələblərə cavab verən kitabxana şəbəkəsinin təşkil olunması mədəni quruculuğun əsas prioritetlərindən biridir. Azərbaycanda kitabxanaların fəaliyyətini yaxşılaşdırmaq haqqında AR Prezidentinin 20 aprel 2007-ci il tarixli Sərəncamı ilə ölkə kitabxanalarının dünya informasiya məkanına inteqrasiyası üçün respublikanın müxtəlif şəbəkələrə daxil olan kitabxanalarının da sürətli inkişafı nəzərdə tutulur. Bu məqsədilə "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nda qısa zaman kəsiyində ölkədə müasir kitabxana-informasiya infrastrukturunun

yaradılması üçün artıq bəzi vacib addımlar atılır, Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planına uyğun olaraq müntəzəm işlər görülür.